**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51 Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az** Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180 https://twitter.com/ANAMA_gov_az

# 24 Fevral 2018-ci il tarixində Agentlik tərəfindən Tərtər rayonu ərazisində keçirilmiş təcili təxirəsalınmaz əməliyyat barədə

# OPERATİV MƏLUMAT

**24 Fevral 2018-ci il tarixində Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən Agentliyə Tərtər rayonu, Seydimli kəndi ərazisində mərminin tapılması barədə məlumat daxil olmuşdur.**

**Məlumata əsasən Agentliyin xüsusi mobil çevik əməliyyat qrupu dərhal həmin əraziyə göndərilmişdir.**

**Agentliyin mütəxəssisləri tərəfindən yuxarıda adı qeyd olunmuş ərazidə su kanalına baxış keçirilmiş, aparılan təcili təxirəsalınmaz operativ əməliyyat axtarış tədbirləri nəticəsində 384 ədəd 7.62 mm-lik güllə (T-46 LPS) aşkar olunmuş, zərərsizləşdirilməsi üçün götürülərək Agentliyin mərkəzi məhvetmə ərazisinə daşınmışdır.**

**Aşkar olunmuş güllələrin ətrafında 350 kv.m əraziyə yerüstü baxış keçirilmiş, bundan əlavə təhlükəli əşya və qurğu aşkar edilməmişdir.**

---

**Ümumilikdə Agentlik tərəfindən 01 yanvar – 24 fevral 2018-ci il tarixlərində Ağdam, Ağcabədi, Ağstafa, Abşeron, Füzuli, Tərtər, Qazax, Naftalan, Goranboy, Xızı, Şəmkir, Lənkəran rayonları, Bakı, Gəncə və Sumqayıt şəhərləri ərazisində 5 ev və həyətyanı sahəyə, 3 əkin sahəsinə, 1 fərdi yaşayış evinin qarşısına, 5 otlaq sahəsinə, su kanalına, kənd qəbirstanlığının yaxınlığına, məişət tullantıları ərazisinə, yol kənarına, RPŞ-nin inzibati ərazisinə, beton zavod və bazar ərazisinə baxış keçirilmiş, 1069 ədəd partlamamış hərbi sursat, 1 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilmiş, 23 865 kv.m ərazi yoxlanılmışdır.**















